Dünənimizin, bu günümüzün, sabahımızın şairi

(Əvvəli 3-cü səh.)

dırdı. Onun deyişmələrindən söhbət açdı.

Millət vəkili, xalq şairi Sabir Rüstəmxanlı bildirdi ki, bugünkü gecəmiz bir daha sübut edir ki, Süleyman Rüstəmin bütün yaradıcılığını bir kənara qoyub mahnı mətnlərini dərc etdirsək, o, yenə Azərbaycan ədəbiyyatının klassiki kimi tanınacaq. Adam inana bilmir ki, bu qədər mahnı mətni bir şairin qələmindən çıxıb. Sonra o Süleyman Rüstəmlə görüşlərindən, onun xeyirxahlıqlarından söhbət açdı. Qeyd etdi ki, xahişi ilə Süleyman Rüstəm Ali Sovetin sədri işlərkən bir nəfər gəncin həyatını güllələnmə cəzasından qurtarmasına kömək etmişdir.

Çıxışçı bu günümüz üçün vacib olan bir məqama da toxundu. Qeyd etdi ki, Süleyman Rüstəm bir dəfə dedi: heç kim bilmir ki, mənim "qırmızı" şeirlərimin arxasında nə dayanır. Sonra Sabir müəllim Süleyman Rüstəmin əruz vəznini heca vəznini bir-birinə sintez etməsindən söhbət açdı. Bu şeirlərin həm əruzda, həm də hecada oxunduğunu qeyd etdi. Onun Cənub şeirlərinin əhəmiyyətini diqqətə çatdırdı.

Xatirə gecəsində Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı Süleyman Rüstəm yaradıcılığını elmi-nəzəri cəhətdən araşdırdı. Qeyd etdi ki, müasir lirikamız öz mayasını Əhməd Cavad və Cəfər Cabbarlı kimi sənətkarlarımızın əsərlərindən alıb, Süleyman Rüstəm, Mikayıl Müşfiq, Səməd Vurğun kimi şairlərimizin yaradıcılığında daha da cilalanıb. Amma onların bir-birindən fərqli cəhətləri də olub. Sevgi lirikasında ən çox Süleyman Rüstəm və Mikayıl Müşfiq diqqəti cəlb edir. Mən şübhə etmirəm ki, Süleyman Rüstəm mahnılarının mətnini zümzümə edə-edə yazıb. Bəstəkarlarımızın işi isə bu şeirlərin içərisindəki musiqini tapmaqdan ibarət olub. Onun "Qurban adına" adlı şeri xalq mahnısına çevrilib. Beş hecalı şeirlə adətən uşaq şeri yazarlar. Amma şair həmin hecada gözəl mahnı mətni yazıb.

Süleyman Rüstəmin Azərbaycan poeziyasına gətirdiyi forma yenilikləri də az deyil. Məsələn, poeziyamızda on hecalı şeirə ən çox Süleyman Rüstəmin yaradıcılığında rast gəlmək olar. "Atdın, məni atdın, məni atdın", yaxud "Yandım, elə yandım, elə yandım" şeirlərinə fikir verin. Hecada yazılıb, amma onu əruzda oxumaq lazımdır. Onun məhəbbət lirikası üçün bir cəhət də var. Bu lirikada ağlamaq, sızlamaq yoxdur. Süleyman Rüstəm əslində dilimizə abidə qoyan sənətkarlardandır. Onun şeir dilinin şirinliyi nəsrinə də hopmuşdu. Şairin satirik hekayələrini, xatirələrini oxuyanda da bu şirinliyi duyursan, görürsən. Dilimiz var olduqca Süleyman Rüstəm poeziyası da yaşayacaq.

Məclisin sonunda şairin oğlu Azad Rüstəmzadə Muğam teatrının rəhbərliyinə, çıxışçılara, ansamblın üzvlərinə, məclisdə çıxış edən aktyorlara və müğənnilərə tədbiri çəkən "Space" telekanalına, bütün qonaqlara təşəkkürünü bildirdi.

Ədəbi-bədii kompozisiya, tamaşa şəklində, formasında hazırlanmış tədbirdə xalq artistləri İlham Əsgərov və Əminə Yusifqızı, Muğam teatrının aktyoru Həlimət Məmmədova çıxışlararası Süleyman Rüstəmin şeirlərindən nümunələr ifa edir, xalq artistləri Nəzakət Teymurova, Aygün Bayramova, Nazpəri Dostəliyeva, əməkdar artistlər İlqar Muradov, Heydər Anatollu, müğənnilərdən Zöhrə Abdullayeva, Könül Kərimova, Almaz Orucova, Nazim Pişəvəri, Lalə Məmmədova, İsmayıl Bağırov, Vüsal Zaman, Vüsal İsrafilov, Rövşən Əziz, İsmayıl Bağırov, Şahin İsmayılov, Yaqut Bağırova görkəmli bəstəkarlarımızın Süleyman Rüstəmin sözlərinə yazdığı mahnıları oxuyur, muğam üstündə onun qəzəllərini diqqətə çatdırırdılar.

Tədbirdə ifaçıları əməkdar artist Ağacəbrayıl Abasəliyevin rəhbərliyi ilə Muğam teatrının ansamblı müşayiət edirdi.

Qələmə aldı: Atababa İSMAYILOĞLU

İsmayıl Şıxlı - 90

Sənətkar əbədiyaşarlığı

Ədəbiyyatımızın görkəmli və unudulmaz simalarından biri olan xalq yazıçısı İsmayıl Şıxlı xarakterlər ustası idi. Bu ustalıq sənətkarın öz şəxsi keyfiyyətlərindən qaynaqlanırdı. Akademik Bəkir Nəbiyevin sözləriylə desək, "İsmayıl Şıxlının öz əsərlərində yaratdığı vüqar, əzəmət, kişilik timsalı olan obrazların ən yaxşılarında o böyük yazıçının, fədəkar insanın öz xasiyyət və xarakterindən, xəyyallarımızda artıq heykəlləşmiş boy-buxunundan, nurlu simasından səciyyəvi bir əlamət var idi".

Elə mayın 5-də bu görkəmli yazıçının M.F.Axundov adına Milli Kitabxanada Mədəniyyət və Turizm Nazirliyinin birgə təşəbbüsü ilə keçirilən 90 illiyinə həsr olunmuş kitab sərgisi və oxucu konfransı da İsmayıl Şıxlının parlaq yaradıcılığını, unudulmaz şəxsiyyətini göz önünə gətirirdi.

Milli Kitabxananın direktoru Kərim Tahirov, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Nizami Cəfərov tədbirdə cıxış edərək bildirdilər ki, təbiiliyi, xarakteri, mərdliyi və özünəməxsusluğu ilə İsmayıl Şıxlı xalq arasında böyük nüfuz qazanmışdır. Xalqın ləyaqətli ziyalısı olan yazıçı elin ağsaqqalı, gəncliyin dayağı olmuşdur. Onun 1990-cı illərdə baş verən hadisələrlə bağlı dediyi "sapı özümüzdən olan baltalar" kəlamı millətə, xalqa olan sevgisindən yaranmışdı. Hələ sovet ideologiyasının kəskin dövrlərində yaratdığı Cahandar ağa kimi mərd, cəsur milli bəy obrazı geniş əks-səda doğurmuşdur. Təkcə "Dəli Kür" romanı kifayət idi ki, İ.Şıxlı XX əsr Azərbaycan ədəbiyyatının klassikləri sırasına düşsün. Görkəmli yazıçı bütün əsərlərində canlı obrazlar qalereyası yaratmış, orijinallığı, özünəməxsusluğu ilə daim seçilmiş, cəsarəti, qorxmazlığı ilə ümumxalq məhəbbəti qazanmışdır.

İ.Şıxlının ilk dəfə yazdığı "Quşlar" şeri 1938-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuşdur. O, ədəbi yaradıcılığa 1947-ci ildə "İnqilab və mədəniyyət" jurnalında çap etdirdiyi "Həkimin nağılı" hekayəsi ilə başlamış, sonra "Ayrılan yollar", "Bizim qəribə taleyimiz", "Dəli Kür" və milli düşüncəmizin inkişafına töhfə verən digər əsərləri ilə oxucuların ürəyində özünə əbədi heykəl ucaldaraq qəlblərdə yaşayacaqdır.

Millət vəkili Nizami Cəfərov onu da nəzərə çatdırdı ki, etnoqrafik zənginlik və müəyyənlik İsmayıl Şıxlının şəxsiyyəti üçün elə bir kontekstdir, o, sonradan nə qazanıbsa, nələri qazanmağa "məcbur edilibsə" hamısı bu kontekstdə meydana çıxıb, ondan cilalanıb və onu cilalamışdır.

Tanınmış yazıçı Vidadi Babanlı mərasimdə ustad sənətkarla bağlı xatirələrini dilə gətirərək qeyd etdi ki, İsmayıl Şıxlı həm böyük yazıçı, həm də yüksək şəxsiyyət idi.

Mərasimdə İ.Şıxlının müxtəlif illərdə işıq üzü görmüş kitabları və AYB-nin ədəbi orqanlarında yazıçı ilə aparılmış müsahibələr sərgiləndi, sənətkarın ömrünün sonunda yazdığı "Ölən dünyam" kitabı təqdim olundu.

Tədbirdə çıxış edən Jurnalistlər Birliyinin sədri, yazıçının oğlu Elçin Şıxlı atasının xatirəsinə ehtiram göstərdiklərinə görə tədbirin təşkilatçılarına və qonaqlara dərin minnətdarlığını bildirdi.

İ.Şıxlının yubileyi ilə bağlı başqa bir tədbir isə Dövlət Musiqili Komediya Teatrında gerçəkləşdi. Mərasimdə Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar, millət vəkili Nizami Cəfərov yubilyar haqqında ətraflı danışdılar. Vurğuladılar ki, İsmayıl Şıxlı bir sənətkar olaraq sağlığında heykəlləşmişdi, millilik və bəşərilik, ziyalılıq və kübarlıq, əqidə və xarakter bütövlüyü sadəlik və müdriklik onun əsas xarakteri idi.

Sonda Akademik Milli Dram Teatrı aktyorlarının ifasında İsmayıl Şıxlının "Ölüləri qəbiristanlıqda basdırın" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa göstərildi.

S.Hüseynoğlu

Xatirəmdəki Məmməd Əkbər

(Əvvəli 5-ci səh.)

ki, gənc yaşlarımdan belə təmiz, millət üçün yanan, cəsarətli, bir-birini sevməyi və müdafiə etməyi bacaran adamların arasına düşmüşəm. Amma şübhəsiz, bu dəstədə Məmməd Əkbər ən koloritli, ən saf və sözün qədrini bilən adamlardan biri idi.

Bura bir jurnalistika məktəbi idi və mən Məmməd Əkbərdən, Sabir Əhmədlidən, Qabildən, Hüseyn Abbaszadədən, Yusif Əzimzadədən, Adil Babayevdən, Məmməd Arazdan, Ayaz Vəfalıdan və bir sıra adlarını çəkmədiyim qəzet əməkdaşlarından universitetin vermədiyi çox şeylər öyrəndim; redaksiya mənəvi cəhətdən son dərəcə təmiz mühit idi. Həmin adamların müəlliflərə və yazılara münasibətini indiki jurnalistikamız üçün də bir nümunə, örnək hesab etmək olar. Qəzetlərimizdə mövcud olan pintiliyi görəndə o insanların, o cümlədən Məmməd Əkbərin söz üstündə necə əsdiklərini xatırlayıram.

Soldan: Həbib Babayev, Sabir Əhmədli, Adil Babayev, Azad Əliyev, Məmməd Əkbər, Ələkbər Ziyatay, Qılman İlkin, Ənvər Yusifoğlu

Qəzetə yeni gələndə bir otaqda otururduq. Aramızdakı yaş fərqinə baxmayaraq, dostlaşmışdıq. Həyatı və yaradıcılıq yolu, bu illərin ərzində görüşdüyü insanlar, 30-cu illərdə yaşadığı vahimələr, jurnalistikanı və ədəbiyyatı öz əsas hədəfindən uzaqlaşdıran ictimai mühit haqqında söhbətləri indi də yadımdadır. Bu söhbətlər onun nə qədər maraqlı və müstəqil düşüncəli bir insan olduğunu göstərirdi.

O, sakit, hadisələrə müdrik bir təmkinlə yanaşan, özünü gözə soxmayan, iddiasız, düzlüyü, ədaləti, halallığı hər şeydən yüksək tutan, eyni zamanda, cəmiyyətdəki bütün hadisələrə ürəkdən, yanğı ilə yanaşan bir adam idi və mənə elə gəlir ki, qızı Səidə Qocamanlının bu gün insan haqlarının müdafiəçisi olaraq daim müəyyən bürokratik maneələrlə və ədalətsizliklərlə mübarizə aparması da atasının ruhundan və amalından irəli gələn məsələdir. M.Əkbər Naxçıvanda və Bakıda bir çox qocaman ədiblərin, alimlərin, jurnalistlərin - bir sözlə, adı mədəniyyət tariximizdə əbədilik yaşayacaq insanların yaxın dostu olmuşdu. Bu barədə maraqlı, bəzən də lətifəyə bənzəyən, yumorla dolu əhvalatlar danışardı. Onun özü haqqında da çox baməzə söhbətlər gəzirdi və özü də bu söhbətləri təbəssümlə dinləyərdi.

Bütün yazılarını barmaq boyda xırda bir karandaşla, ərəb əlifbası ilə, çox vaxt da saralmış kağız parçalarına yazırdı. Zarafata salıb nə qədər çalışsaq da, onu hamımızın yazdığımız qələmə öyrəşdirə bilmədik.

Yaşlı vaxtında da formasını itirməyən sıx saçları vardı. Zarafatla soruşurdum ki, Məmməd Əkbər müəllim, necə qulluq etmisiniz ki, saçlarınız belə gur qalıb? Deyirdi ki, qonşum Yaşar Qarayevə bax, saçlarını qorumaq üçün bir apteklik şampundan, bahalı sabunlardan istifadə elədi, amma saçı qalmadı; mənsə bütün ömrüm boyu saçımı paltar sabunu ilə yumuşam. Çox vasvası olma - bir şeyin üstündə çox əssən, onu tez itirərsən.

Yoldaşlarına qarşı çox diqqətli idi. Otaqda olmadığım vaxtda zəng vuran adamların hamısının adını qeyd edər, hamıya mehribanlıqla cavab verər, amma sonra da bu zənglər əsasında mənə sataşmağa bir mövzu tapardı.

Onun jurnalist taleyindən gileyləndiyini eşitməmişdim. Ancaq tək bir cümləsi bu məsələyə münasibətini dəqiqliklə göstərmişdi. O vaxt qəzetdə ədəbi işçi idim. Bir dəfə dedi ki, gələcəyin haqqında ciddi düşün: ədəbi işçi ol, amma əbədi işçi olma!

Bir dəfə ora-bura vurnuxduğumu görüb, "niyə narahatsan" - deyə soruşdu. Dedim, televiziyada apardığım veriliş üçün orta məktəbi əla qiymətlərlə qurtarmış uşaqlar tapmalıyam. Dedi ki, biri Gülşən!

Razılaşdıq, qızı Gülşən Əkbərovanı öz verilişimə dəvət etdim. Gülşən doğrudan da çox ağıllı, savadlı bir qız idi və elə ilk çıxışı o qədər bəyənildi ki, sonralar onu televiziyada işə dəvət etdilər.

Məmməd Əkbər haqsızlığa dözümsüz idi. Bu, xüsusən maaş alandan-alana, əhvalının yaxşı vaxtında daha aydın hiss olunurdu.

Baməzəliyi onu müəyyən nəsr əsərlərindəki personajların prototipinə çevirib. Bəzən özü bilərəkdən danışığa mövzu verirdi.

Yaşa dolandan sonra axtarıb-arayanı azalmışdı. Bəlkə buna görə ara-sıra evdən zəng vurub özü-özünü soruşurdu: "Mənə Məmməd Əkbər lazımdı! Onunla vacib işim var". Səsini tanısam da, üstünü vurmadan, "Məmməd Əkbər müəllim bu gün vacib iş dalıyca gedib, olmayacaq" - deyirdim.

Ömrünün axırına doğru tez-tez ölüm haqqında danışırdı. Hər dəfə də sözünü zarafatla bitirirdi.

Dilxor vaxtında "çətini ölənəcəndir, elə ki öldün, bütün işlər yağ kimi gedəcək" - deyirdi. Bu, onun dillərə düşmüş onlarla qanadlı ifadələrindən biridir.

Bir dəfə dedi: "Mən evdə ölmərəm ki, uşaqlarım qorxmasın".

Ömrünün sonu da belə oldu. Ölümünü qabaqcadan hiss edən fillər kimi evdən çıxıb yaxındakı parkda, skamyada gözünü yummuşdu.

Yəqin ki, başımız ayılanda, sözün, jurnalistikanın təməl daşlarını qoyan, amma ömrü boyu bunun qarşılığını tələb etməyən, özlərini qəzetçiliyin qara fəhləsi sayan bu insanların keçdiyi yola, yazılarına diqqət yetirməyə vaxt tapacaq və onların əsl dəyərini verəcəyik.

Sabir RÜSTƏMXANLI

Bildiriş

Azərbaycan MEA-nın Nizami adına Ədəbiyyat İnstitutu görkəmli yazıçı, dramaturq, tənqidçi və ictimai xadim Mehdi Hüseynin 100 illik yubileyinə həsr edilən elmi sessiya keçirir.

Gündəlik

Giriş sözü: akademik *Bəkir Nəbiyev*

Məruzə

Mehdi Hüseynin yaradıcılıq yolu
- f.e.d.*Bədirxan Əhmədov*

Çıxışlar, xatirələr
- akad. Teymur Bünyadov, prof. Qəzənfər Paşayev, f.e.n. Vaqif Yusifli, f.e.n. Tahir Məsimov və b.

Sessiya **mayın 13-də** saat 11-də bu ünvanda başlanır: Bakı, H.Cavid prospekti 31, Akademiya şəhərciyi, əsas bina 5-ci mərtəbə, 533-cü otaq.

Maraqlananlar dəvət olunur.

Müdiriyyət

Təqdimat

Bu günlərdə Abdulla Şaiqin mənzil muzeyində muzeyin yeni nəşr etdirdiyi kitabın, Abdulla Şaiqin böyük türk şairi və mütəfəkkiri Mövlanə Cəlaləddin Ruminin "Məsnəvi"sindən tərcümə etdiyi "İbrət və müqabilə, yaxud ümmətlər ixtilafı" kitabının təqdimat mərasimi keçirildi.

Əsəri muzeyin əməkdaşı İnstitutun böyük elmi işçisi Arif Ramazanov ərəb əlifbasından müasir əlifbaya transliterasiya edib.

Tədbirdə A.Ramazanov, filologiya elmləri doktoru A.Bayramoğlu, filologiya elmləri namizədi P.Əlioğlu, sənətşünaslıq namizədləri Ü.Talıbzadə, M.Əsədli, şair-publisist Ş.Gündüz, A.Hacızadə, G.Rəsulova, 189 saylı məktəbin şagirdi F.Kərimzadə çıxış etdilər. Onlar ədibin geniş tərcüməçilik fəaliyyəti haqda maraqlı fikirlər səsləndirdilər. Mərasimdə Mədəniyyət və İncəsənət Universitetinin müəllimləri, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, C.Məmmədquluzadə, L. və M.Rostropoviçlər ev muzeylərinin əməkdaşları iştirak etdilər.

Tədbirdə Abdulla Şaiqin tərcümə yaradıcılığı haqqında hazırlanan vizual görüntülər təqdim edildi.

A.Hacızadə